**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2024.1.27**

**ŞƏHLA FƏTƏLİYEVA***

# SEYİD ƏZİM ŞİRVANİ KLASSİK ŞƏRQ ŞEİRİNİN MÜTƏRƏQQİ ƏNƏNƏLƏRİNİN YENİ DÖVRDƏ QÜDRƏTLİ VARİSİ KİMİ

*Məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan böyük şairimiz Seyid Əzim Şirvaninin yaradıcılığı ön plana çəkilərək tədqiqata cəlb edilmişdir.*

*Seyid Əzim Şirvani ədəbi yaradıcılığa lirik şair kimi başlamışdır. O, klassik şeirin qəzəl, qəsidə, rübai, qitə, müxəmməs və s. kimi şəkillərində dəyərli poetik nümunələr yaratmışdır. Şairə görə həqiqət ona təbiətin qoynunda mövcud olan gerçəklikdən ibarət idi. Şairin zəngin yaradıcılığında yeniləşmə və müasirləşmə prosesi başlayır. O əvvəlki ənənələrini davam etdirməklə yanaşı, nəsihətlər, mənzum və mənsur hekayələr, satirik şeirlər yazırdı. Şairin yaradıcılığında satirik və didaktik povest üstünlük təşkil edir. Bütün bu sadalananlar məqalənin araşdırılması prosesində öz əksini genişliyi ilə tapmışdır.*

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, qəzəl, maarifçilik, satira, klassik.*

## Giriş

Seyid Əzim Şirvani Azərbaycan ədəbiyyatının görkəmli xadimlərindəndir. Şair böyük Mirzə Fətəli Axundzadənin maarifçilik və islahatçılıq ideyalarının həm davamçısıdır, həm də müdafiəçisidir. Eyni zamanda dövrünün dəyərli ziyalılarından olan Həsən bəy Zərdabinin ideya silahdaşıdır. Dəyərli satirik şairimiz Mirzə Ələkbər Sabirin ustadı olmuşdur. Şair ədəbi yaradıcılığa başladığı gündən etibarən həmişə xalqın mövqeyində dayanmış, cəmiyyətin mütərəqqi meyllərini təmsil etdiyi, ziyalıların cərgəsində dayanmışdır. XIX yüzilliyin 70-ci illərində ölkə ideya mübarizələri mərhələsinə qədəm qoymuşdur. "Əkinçi" ətrafında toplaşan ziyalılarla eyni mövqedə olmuş, onlarla çiyin-çiyinə xalqın dirçəlişi uğrunda mübarizə aparmışdır. Elə məhz həmin dövrdə, yəni XIX əsrin ikinci yarısından sonra Azərbaycanda maarifçilik ideyaları qüvvətlənərək böyük bir vüsət alırdı. Bu hərəkatın görkəmli nümayəndələrindən biri kimi tanınan Seyid Əzim Şirvani maarifçi realist şeirin dəyərli nümunələrini yaratmaqla doğma ədəbiyyatımıza misilsiz xidmətlər göstərmişdir.

## Əsas təhlil

Seyid Əzim Şirvani 1885-ci ildə dini təhsil almaq üçün İraqa yollanır. Şərq fəlsəfəsini, ərəb ədəbiyyatını, islam tarixini, ərəb dilinin sərfi nəhvini öyrənir.

O, təhsilini başa vurub dini və dünyəvi elmlərə yiyələnərək vətənə qayıdır.

Təhsilini başa vurub qayıtdıqdan sonra, vətəndə başqa mənzərələrlə qarşılaşır. Belə ki, artıq xalqda ictimai məsələlərə maraq qüvvətlənmişdi. Ölkədə gedən bu cür proseslərin təsiri nəticəsində şair öz həyat yolunu dəyişir.

Şair-pedaqoq Şamaxıdakı "Beytis-Səfa" şairlər məclisində fəaliyyət göstərir və bununla yanaşı Bakı, Lənkəran, Şuşa, Dərbənd, Ordubad və s. qəza mərkəzlərindəki ədəbi məclislərin üzvləri ilə müntəzəm sürətdə yazışır.

Seyid Əzim Şirvani ədəbi yaradıcılığa XIX əsrin 50-ci illərində 18-20 yaşlarında lirik şair kimi başlamışdır. O, klassik şeirin qəzəl, qəsidə, rübai, qitə, tərkibənd, müxəmməs və s. kimi şəkillərində dəyərli poetik nümunələr yaratmış, müasirləri arasında yaratmışdır. Seyid Əzim Şirvani qələminin qüdrəti sayəsində real həyat həqiqətlərinin, cəmiyyətin təbəqələri arasında kəskin ziddiyyətlərin dünyəvi hisslərin yüksək mənəvi keyfiyyətlərin ülvi məhəbbətin ifadə vasitəsinə çevrilmişdir. Öz şəxsi mənafeləri üçün Quran və Peyğəmbər tərəfindən qoyulmuş şəriət təliminin mənasını istədikləri kimi təhrif edən vaizlərin və axundların təlimini alt-üst etmiş, fitnə və mənəvi zülmün təzyiqi altında əzilib paymal olan məzlum kütləyə həqiqəti anlatmışdır. [1 səh. 69].

Seyid Əzim Şirvaninin bədii zövqü klassik Şərq, o cümlədən Azərbaycan şeirinin çoxəsirlik ənənələri zəminində cilalanıb formalaşmışdır. O, Nizami, Xəyyam, Rumi, Füzuli və s. kimi qüdrətli sənətkarların ədəbi irsini dərindən öyrənib mənimsəmiş və onlardan ardıcıl sürətdə yaradıcı şəkildə bəhrələnmişdir.

Gül qönçələrində gərçi olur aşina,
Açsa niqabım olur əğyarə aşina
Biganələrlə çünki olur aşina, könül,
Kaş olmayaydın ol gülü-bixarə aşina

Cənnət hərəmım olsun əgər şəkvə eyləsəm,
Öz xahişimlə yaxsa məni narə aşina [2, s. 11].

Şairin yaradıcılığı boyu klassik şeir formalarına xüsusi maraq göstərməsinin bir səbəbi də müsbət mənasında Şərq ədəbiyyatı klassiklərinə aludəçilik göstərməsi olmuşdur. Lakin buna baxmayaraq Seyid Əzim Şirvani lirikası öz məzmun və mündəricəsi etibarilə orijinal ahəngdə səslənir və sələflərinin yaradıcılığından bir sıra əlamətləri ilə seçilirdi. Seyid Əzim Şirvani yeni əsrin, təzə dünyanın sənətkarı idi. Yaxın və Orta Şərqi gəzib dolaşan, ağıla və ürəyə fayda çox şey görüb, çox şey öyrənən şairin düşüncələrində həyat və cəmiyyətin inkişaf qanunları haqqında düzgün qənaətlər yaranmışdır.

O, artıq təbiətin fövqündə fövqəlbəşər qüvvələrin mövcud olması haqqında əfsanələri qəbul etmirdi. Onun üçün həqiqət ana təbiətin qoynunda mövcud olan gerçəklikdən ibarət idi.

Seyid Əzim Şirvani dünyagörüşünün bu xüsusiyyəti onun yaradıcılığının realist istiqamət almasında həlledici rol oynadı. Real həyat həqiqətləri və insanlar arasındakı münasibətlər lirikasının əsasının məğzini təşkil etdi. Real hadisə və insan münasibətlərinin təsviri Seyid Əzim Şirvaninin yaradıcılıq uğurlarını təmin etdi.

Seyid Əzim Şirvani bədii yaradıcılıq aləminə əsasən, qəzəl yazmaqla gəlmişdir. Ayrılıq dərdi vüsal həsrətinin, sevən, eşq atəşinə yanan aşiqin təmiz hisslərinin təsviri Seyid Əzim Şirvani qəzəllərinin mühüm bir qismi üçün səciyyəvi idi.

Oldu sənsiz çəmən, ey gül, məni-şeydayə qəfəs,
Nə çəmən, cümlə cahandır məni rüsvayə qəfəs..
Aşiqi azadə gərəkdir ki, dönər zindanə
Bərgi-güldən ola gər bülbülü-şeydayə qəfəs.
Ağladı bülbül əgər mən kimi hicran gecəsi,
Nə üçün dönmədi bir mövlü dəryayə qəfəs [2, s. 158].

Şair qadın gözəlliyinin dinin müsəlmanlar üçün müqəddəs elan etdiyi hər şeydən üstün tutur. Onun nəzərində ən yaxşı ibadət gözlə və gözəlliyə səcdə etməkdən ibarətdir.

Seyid Əzim Şirvani obrazlarında ümumiləşdirdiyi ruhani şeir kimi ona görə tənqid edirdi ki, onlar tərki-dünyadırlar. Vazehlər, Zahidlər gözəlin məhəbbətindən doğan iztirablara tab gətirmək qüdrətindən məhkum olduqlarına görə nisyə xəyallar ardınca gedirlər. Şair, onları maddi aləmin–ana yurdun gözəlliklərindən bəhrələnə bilmədiklərinə görə tənqid və istehza hədəfinə çevirirdi.

Ey zahidi-xudbin, bilirəm ki, hünərin yox,
Meydanı məhəbbət tərəfə bir güzərin yox,
Mehrabda əgləşki, cigərdar deyilsən,
Bu nazi qəmə yanmağa əsla cigərin yox

Sən eylə pəri, hur xəyalı ilə ibadət,
Vəzmində ələnnəqd büti simbərih yox [2, s. 15].

XIX əsrin 70-ci illərindən başlayaraq Seyid Əzim Şirvaninin yaradıcılığında ciddi yeniləşmə və müasirləşmə prosesi başlayır. O, əvvəlki yaradıcılıq ənənələrini davam etdirməklə yanaşı nəsihətlər, mənzum və mənsur hekayələr, satirik şeirlər yazır. Yaradıcılığında satirik və didaktik povestləri üstünlük təşkil edir.

Ey bəzi mədh qılan Hadiyi-dövran əxəbr
Bu nə zəhmətdir, əya mənbəyi-ürfan əxəbr
Seyyidi eyləmisən mədhi-firavan, əxəbr,
Şad səndən olacaqdır şəhi-Mərdan, əxəbr [3, s. 40].

Azərbaycan klassiklərinin hər birində varlığı dərk və ifadə cəhətindən elə xüsusiyyət var ki, onu qələmdaşından fərqləndirir. Həmin xüsusiyyət Nizami üçün fəlsəfi zənginlik, Xaqani üçün zəmanəyə meydan oxumaq, Nəsimi üçün insanın müqəddəsləşdirilməsi, Füzuli üçün "aşiqanəlik", Mirzə Fətəli üçün cəmiyyətin eybəcərliyini ifşa, Seyid Əzim Şirvani üçün satira və lirika. Bunlar hamısı odlu fəğanlar, qanadlı arzulardır.

Sözsüz ki, şərti mənada işlənən bu xarakteristikanın özü də çox aşkar göstərir ki, "Klassik adını daşıyan ədiblərimizin hamısı novator olmuşdur" [4, s. 87].

Seyid Əzim Şirvani Azərbaycan maarifçilik məfkurəsinin demokratik cəbhəsinə mənsub idi. M.F.Axunzadə, H.Zərdabi, N.Vəzirov və s. kimi o da müstəmləkə şəraitində, dini formatizmin təzyiqi altında yaşayan Azərbaycan xalqının fiziki və mənəvi əsarətdə qurtuluş yolunu maariflənməkdə, elmə, texnikaya dərindən bələd olmaq və bu cür biliklərə yiyələnməkdə, cəmiyyəti çürüdən tüfeyli təbəqələrin kökünü kəsməkdə görürdü.

Əsrin birinci yarısında yazıb-yaradan şairlər də şeirlərində məhəbbət nəcib insani hiss, yüksək bəşəri duyğu kimi tərənnüm olunur, aşiqlər ən kamil insan hesab edilirdi. Sevgini həyat mənbəyi kimi qiymətləndirən Seyid Əzim Şirvani yazırdı.

Hər bir könüldə eşq ola, şadan edər onu,
Eylər xəzan olan çəməni nobahar eşq,
Hər kəsdə yoxdur eşq onun, bil kamalı yox,
Kamil olan vücudlar eylər, şüar eşq [5 s. 5].

Şair məhəbbətin təsvir və tərənnümünə xüsusi yer verir, əsərlərində təmiz ürəklə sevən aşiqin mənəvi dünyasını, könül aləmini, keçirdiyi həyəcanları, ürək çırpıntılarını, məhəbbət uğrunda çəkdiyi iztirabları, sevginin ayrılığından doğan kədər duyğularını və s. geniş şəkildə təsvir etmişdir. Şairin sevgidən bəhs edən şeirlərinin mərkəzində həyat eşqi, yaşamaq ehtirası, dünyəvi nemətlərdən zövq almaq ideyası dayanır.

Əxlaqi-didaktik şeirdə təbliğ olunan əsas insani xüsusiyyətlər sadəlik, təvazökarlıq, mehribanlıq, vətənpərvərlik idi. Seyid Əzim Şirvani öyüdlərində zəhmət, əmək insanı ucaldan başlıca amillər kimi göstərilir, gənc nəslə işsizlikdən, bekarçılıqdan uzaqlaşıb, müəyyən bir sənətə yiyələnmək tövsiyə olunurdu.

Ey oğul, bil ki, adəmi-bikar,
Xişk olan bir odundu, layiqi-nar.
Bunu bizdən deyibdilər əqdən,
Sənəti olmayan deyil adəm [5, s. 17].

Maarifpərvər şair başqa bir şeirində birlik, ittifaq ideyasını irəli sürərək, fərdiyyətçiliyin əleyhinə çıxır, gəncləri birliyə, ittifaqa çağırırdı.

Ittifaq eyləyəndə baş barmaq.
Xeyli asandı bir işi tutmaq.
Yoxdur, ey sərvərim, tək əldə səda,
İttifaq ilədir sürüri səfa [5, s. 18].

Seyid Əzim Şirvani xalqının gözəl gələcəyi haqqında gözəl arzular qurur və onu dünyanın ən maariflənmiş və tərəqqi etmiş millətlərindən biri kimi görmək istəyirdi. Müdrik şair xalqının düçar olduğu bəla və bədbəxtliklərin əsas səbəblərindən birini də ruhanilərin cəmiyyətdəki fəaliyyətində, onların təbliğ etdikləri yalanlarla xalqı müasir həyatın tələblərindən uzaq düşməsində görürdü.

Bir yaman ərdi mən bilməliyəm vaveyla
Fitneyi-dövrü-qəmər yoxsa olubdur peyda?
Götürüb mənsəbi-Molla Nədi hər bisərü pa
Az qalıb Ağca bacı da gəlib olsun Molla
Yoxdur hərçənd ki, həlvasına bazar bu gün [3, s. 12].

Şair doğma xalqının müasir dünyanın inkişaf ahənginə qoşulmasını onun tərəqqisi üçün əsas amil hesab edirdi. Bir maarifçi olaraq köhnəliyi tənqid atəşinə tutan Seyid Əzim Şirvani eyni zamanda onu islah və yenidən qurulması yollarına da fikirləri, düşüncələri istiqamətləndirirdi. Mirzə Fətəli Axunzadə ilə eyni mövqedən maarifçi şair müsəlmanlarının iqtisadi tənəzzülünü və maddi yoxsulluğunu onların savadsızlığında, mədəni geriliyində görürdü və bunu başlıca səbəb hesab edir, qurtuluş yolunu müasir tərəqqi vasitələrində axtarırdı.

Şair cəmiyyətin müxtəlif təbəqələrinin maddi və mənəvi həyatında təzahür edən nöqsan və qüsurları, çirkin əməlləri cəsarətlə satiralarında hədəf edirdi.

Seyid Əzim Şirvani satiralarının mövzü dairəsi geniş, tənqid hədəfləri əlvandır. Çarizmin ucqar Azərbaycanda yeritdiyi mənfur müstəmləkiçilik siyasəti, yaramaz idarə üsulu və şairin tənqidi əsas aparıcı yer tuturdu.

Seyid Əzim Şirvani satiraları maarifçi kjdkfj malik idi. Şair mextəlif təbəqələrin cəmiyyətini

təsvir edərək onların düçar olduqları mənəvi böhranı, əxlaqi illəfləri ön plana çəkir.

Ey bu nadanlar əlindən yetişən Canə Həsən,
Səbr qıl təneyi-hər cahili nadanı, Həsən,
Sən də Seyyid kimi pərədi-həramə, Həsən,
Bəlkə bir söz qana bu zümreyi nadan, əxbər [3, s. 41].

Seyid Əzim Şirvani misralarında mövzunun gerçəkliyin hansı səhnəsində asılı olmayaraq bəla qüsurların ictimai kökü araşdırılmır. Bütün eybəcərliklərin səbəbi ictimai quruluşda yox, naqis ağılda, əxlaqda, mənəviyyatda axtarılırdı. Seyid Əzim Şirvani eyni maariflənməyi, müasirləşməyi cəmiyyətin yenidən qurulması işində başlıca şərt kimi qəbul edilirdi. Lakin şair yaradıcılıq imkanların təkcə bununla məhdudlaşdırılmırdı.

Seyid Əzim Şirvani belə hesab edirdi ki, xalqı müasir elmi biliklərlə silahlandırmaq yolu ilə maarifçilərin, "bəşəriyyətin cənnəti" kimi idealizə etdikləri gələcək xoşbəxt cəmiyyət yaratmaq olar. Elə cəmiyyət ki, orada bütün vətəndaşların ahəngdar inkişafı təmin olunsun. Orada zalımlar əməllərinin qəbahətini başa düşüb, məzlumdan və binəsiblərə zülm etməkdən əl çəksinlər. Bunada ayrı-ayrı fərdlərin dəyərini və ictimaitdə müəllimə hörmət, məzlumlara qayğı, qadına ehtiram, mənəvi təmizlik kimi keyfiyyət təbliğ olunurdu.

Seyid Əzim Şirvani ictimai xadim, millət təəssübü və qeyrəti çəkən işıqlı şəxsiyyətlərin, maarifin və elm adamlarının məsləkdaşı, qatillərin, nadanların, riyakarların düşməni, şairlərin dostu idi. F.Köçərlinin dediyi kimi "öz zəmanəsinin hər bir həyati hadisələrinə və məsələsinə çox tez cavab verirdi" [1, s. 74].

Seyid Əzim Şirvani vətəni doğma Azərbaycanda gec-tez xoşbəxt bir cəmiyyətin qurulacağına dərin inam bəsləyirdi. Ona görə də o üzünü gələcəkdə yaradılacaq yeni cəmiyyətin üzvlərinə tutub bu yolda dəyişən, lakin arzusu ürəyində qalıb həsrətlə dünyadan köçən fədailərdən biri kimi məsud anlarda onu da yad etmələrini xahiş edir. Misralarında ürəyinin döyüntüləri eşidilən əsərlərini oxuyub bu yazılanlardan bəhrələnməyi gələcək nəslə məsləhət görürdü.

Ol zaman kim, bu dövreyi-əflak,
Çürüdüb eyləyər vücudumu xar
Oxuyanlar həqiri yad edərlər,
Ruhunu qəbr evində şad edələr.
Gələcək aləmə çox əhli-məzaq,
Olacaqlar vücuduma müştaq.

Şairin öyüd və nəsihətləri mövzularının rəngarəngliyi, problemlərinin çoxluğu baxımından diqqətəlayiqdir. Bir qayda olaraq, şair öyüd və nəsihətlərini oğluna xitabla başlayır. Bu öyüd və nəsihətlərin mərkəzində zəngin həyat təcrübəsi qazanmış, müdrik şair–atanın sürəti dayanır.

Seyid Əzim Şirvani kiçik həmvətənlərinə aşılamaq istədiyi hislərin ən başlıcası vətən sevgisidir. Vətəni sevmək, yurdsevərlik Seyid Əzim Şirvaninin öyüd və nəsihətlərinin əsas ideyalarındandır. Vətənin müqəddəs bir məkan olması şairin bütün yaradıcılıq meyarlarında öndədir.

Bir maarifçi kimi Seyid Əzim Şirvani təbii hüquq nəzəriyyəsinin mövqeyində dururdu. O belə hesab edirdi ki, insanlar anadan bərabər doğulurlar. Onların rəngində, tərbiyəsində fərq olsa da, bu adamların yüksək və alçaq irqdən olduqlarını söyləməyə əsas vermir. Seyid Əzim Şirvani gəncliyin xeyirxah, ədəbli müəllimi idi. Şair onların simasında xalqın rifahını və mədəni yüksəlişini təmin edən əzəmətli, yenilməz bir qüvvə görürdü. Seyid Əzim Şirvaninin öyüd və nəsihətlərində elmi biliklərə yüksəlməyin faydalarından söhbət açılır.

Deyəcəklər ki, heyif Seyyidi-zar,
Oldu Şirvan ara qərib məzar.
Kaş olaydı zəmanəmizdə bizim
Bəzmi-cəngü çəğanəmizdə bizim! [1, s. 31].

**Nəticə**

Bütün bu yazdıqlarımız Seyid Əzim Şirvani yaradıcılığına səthi bir səyahət desək yanılmarıq. Inanıram ki, şairin yaradıcılığı bundan sonra mərhələ və dövrlərdə də diqqət mərkəzində saxlanılıb, yeni-yeni tədqiqatların axtarış mənbəyi olacaqdır. Gənc nəslin həmişə Seyid Əzim Şirvani kimi ədiblərin tövsiyyəsinə, nəsihətinə ehtiyacı vardır. Bu xalq həmişə müdiriklərindən örnək almaqla tarixdə varlığını qoruyub saxlamışdır.

## ƏDƏBİYYAT

1. F.Köçərli. Seçilmiş əsərləri, Bakı, 1963.
2. Seyid Əzim Şirvani. Seçilmiş əsərləri, üç cilddə. I cild. "Şirasi PRESS". Bakı, 2005.
3. Seyid Əzim Şirvani. Seçilmiş əsərləri, üç cilddə. II cild. "Avrasiya PRESS. Bakı, 2005.
4. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. I cild. "Elm" nəşriyyatı, Bakı, 1982.
5. XIX əsr Azərbaycan şeiri Antologiyası. "Şərq-Qərb", Bakı, 2005.

***Naxçıvan Müəllimlər İnstitutunun dosenti**
***e-mail:ShahlaFataliyeva@nmi.edu.az***

**Shahla Fataliyeva**

## SEYYED AZIM SHIRVANI OF THE PROGRESSIVE TRADITIONS OF CLASSICAL EASTERN POETRY AS A POWERFUL SUCCESSOR IN THE NEW AGE

In the article, the work of our great poet Seyyid Azim Shirvani, one of the outstanding representatives of Azerbaijani literature, was brought to the fore and involved in the research.

Seyyed Azim Shirvani started his literary career as a lyric poet. He wrote ghazal, qasida, rubai, qita, mukhammas, etc. of classical poetry. Created valuable poetic examples in his pictures. According to the poet, the truth consisted of the reality that existed in the bosom of nature. The process of renewal and modernization begins in the rich creativity of the poet. In addition to continuing his previous traditions, he wrote sermons, verse and rhymed stories, and satirical poems. The poet's work is dominated by satirical and didactic narrative. All these listed have been reflected in the process of researching the article.

**Keywords:** *Seyyed Azim Shirvani, ghazal, enlightenment, satire, classical.*

**Шахла Фаталиева**

## СЕЙЕД АЗИМ ШИРВАНИ О ПРОГРЕССИВНЫХ ТРАДИЦИЯХ КЛАССИЧЕСКОЙ ВОСТОЧНОЙ ПОЭЗИИ КАК МОЩНЫЙ ПРЕЕМНИК В НОВОМ ВЕКЕ

В статье на первый план и привлечено к исследованию творчество нашего великого поэта Сейида Азима Ширвани, одного из выдающихся представителей азербайджанской литературы.

Сейед Азим Ширвани начал свою литературную карьеру как лирик. Он писал газели, касыду, рубаи, киту, мухаммас и т. д. классической поэзии. создал в своих картинах ценные поэтические образцы. По мнению поэта, истина заключалась в действительности, существовавшей на лоне природы. В богатом творчестве поэта начинается процесс обновления и модернизации. Помимо продолжения прежних традиций, он писал проповеди, стихи и рифмованные рассказы, а также сатирические поэмы. В творчестве поэта преобладает сатирическое и дидактическое повествование. Все перечисленное нашло отражение в процессе исследования статьи.

**Ключевые слова:** *Сейед Азим Ширвани, газель, просветительство, сатира, классика.*

*Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 06.01.2024**
**Son daxilolma tarixi:17.02.2024**